# V BÖLMƏ.
# İQTİSADİ İNKİŞAF, İNNOVASİYA SİYASƏTİ VƏ İKT

**UOT 338.45**

***Qəzənfər Salman oğlu SÜLEYMANOV***
***Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin***
***“Menecment” kafedrasının müdiri, i.e.d., professor;***

***Emiliya Xanhüseyn qızı ŞAHVERƏNOVA***
***Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin***
***“Menecment” kafedrasının assistenti***

## MÜƏSSİSƏNİN RƏQABƏTƏDAVAMLI İQTİSADİ İNKİŞAFINDA İŞGÜZAR REPUTASİYANIN PERSPEKTİVLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi:** Ölkəmizdə postmünaqişə və postpandemiya dövründə işğaldan azad edilmiş ərazilərdə, o cümlədən də digər sənaye müəssisələrinin yenidən qurulması və bərpasına təsir edən amillərin təsnifatı, kiçik və orta biznesin fəaliyyətinin davamlı inkişafına təsir göstərən işgüzar reputasiyanın düzgün qiymətləndirilməsi və idarə edilməsinə dair bir sıra mexanizmlərin işlənməsi.

**Tədqiqatın metodologiyası:** Müəssisənin maddi və qeyri - maddi aktivlərinin düzgün qiymətləndirilməsi sayəsində gələcəkdə sənaye müəssisələrinin uğurla idarə edilməsi, kiçik və orta biznesin fəaliyyətinin genişləndirilməsi üzrə metodikanın işlənməsi.

**Tədqiqatın tətbiqi əhəmiyyəti:** Zəngin təbii və maddi resurslara malik olan ölkəmizdə, o cümlədən də işgaldan azad edilmiş ərazilərdə biznesin bərpası inkişafı, səmərəli sistemin yaradılması, dövlət tərəfindən dəstəklənməsi və fəaliyyət prosesində işgüzar reputasiya üsullarından istifadə edilməsi təklif edilmişdir .

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Qloballaşan dünyada ölkəmizin iqtisadi və istehsal potensialından səmərəli istifadə etməklə dövlətimizin sosial-iqtisadi inkişafının artırılması, ordumuzun daha da gücləndirilməsi, vətəndaşların rifahının daha da yaxşılaşdırılması məqsədi ilə müəssisələrin rəqabətədavamlı inkişafında işgüzar reputasiyadan istifadənin iqtisadi mexanizmlərinin işlənilməsidir.

**Nəticə:** Dinamik dəyişən sənaye müəssisələrinin uzunmüddətli davamlılığı və rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi və həmçinin səmərəli idarəetmə mexanizminin formalaşması məqsədi ilə işgüzar reputasiya perspektivlərindən yaranan iqtisadi kateqoriyalar çox əhəmiyyətlidir və eyni zamanda, müasir dövrdə hələ də kifayət gədər öyrənilməmişdir.Yəni, post-konflikt vəziyyətlərdə biznes fəaliyyətinin yenidənqurması və bərpası üçün inzibati təzyiqin minimumlaşdırılması, güzəştli kreditlərin təşkili, kiçik sahibkarlıq subyektlərinə dövlət dəstəyi kimi əlavə tədbirlərin görülməsi olduqca əhəmiyyətli və mütləqdir.

### *Giriş*

Azərbaycanın siyasi və iqtisadi suverenliyinin təmin edilməsi işğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi potensialından xalqımızın rifahı üçün tam istifadə olunmasına geniş imkanlar yaradır. Müstəqil və suveren Azərbaycan dövləti postpandemiya və postmünaqişə dövründə keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Ümumiyyətlə,

işğaldan azad olunmuş ərazilərin bərpası Prezident İlham Əlyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də öz əksini tapmışdır.

Belə ki, işğaldan azad olmuş ərazilərin bərpası və yenidənqurma məsələləri ölkənin sosial-iqtisadi inkişafına dair beş milli prioritetdən biri olaraq müəyyən edilməsi mövzunun aktuallığını təsdiqləyir. Bununla bağlı Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycanın işğaldan azad olunmuş ərazlilərin bərpası ilə əlaqədar böyük planı var: “Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik” [2,3].

Lakin, post- konflikt vəziyyətlərdə biznesin və firmaların fəaliyyətinin bərpası və yenidən qurulması kifayət gədər çətin bir prosesdir. Kiçik və orta biznesin sayəsində ölkə iqtisadiyyatında ədalətli rəqabət və innovasiyaların həyata keçirilməsi, yeni iş yerlərinin açılması,bazarda tələbata uyğun məhsulların və xidmətlərin əmələ gəlməsi baş verir. Münaqişədən yeni çıxmış ərazilərə investisiya cəlb etmə prosesi böyük həcmdə məlumatların toplanması, emalı, yayılmasının təşkilini təmin etmək ,lazım olan istiqamətə yönləndirmək deməkdir.Bu ərazilərin təbii sərvətləri kifayət qədər boldur. Xüsusən də Zəngilan, Kəlbəcər və Laçın rayonlarını qeyd edə bilərik. Qızıl ehtiyatlarına görə Kəlbəcər ilk, Zəngilan isə ikinci sıradadır. Bəzi qiymətləndirmələrə görə, yalnız Kəlbəcərdə Ermənistan şirkətləri 300 milyon dollarlıq qızıl hasil edərək dünya bazarına çıxarıblar. Bundan başqa, hər iki rayonda mis və dəmir ehtiyatları var [1,3]. Demək olar ki, bütün azad edilmiş ərazilərimizdə inşaat materiallarının istehsalı üçün xammal mövcuddur. Bütün bunlar imkan verəcək ki, həmin təbii ehtiyatlardan xüsusilə sənaye müəssisələrinin qurulmasında istifadə olunsun. Bu, həm yeni iş yerlərinin yaradılmasına, həm də Azərbaycanda ümumdaxili məhsulun artımına təminat verəcək. Bunlar qeyri-neft sektorunda istehsalın artımı baxımından da vacibdir. İşğal edilmiş ərazilərdə 155 müxtəlif növ faydalı qazıntı yataqları, o cümlədən 5 qızıl, 6 civə, 2 mis, bir qurğuşun və sink, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, bir soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9 gips, anhidrid və gəc, bir perlit, bir obsidian, 3 vermikulit, 14 əlvan və bəzək daşları (əqiq, yəşəm, oniks, cad, pefritoid və sair) yataqları yerləşir. Bu ərazilər dəmir filizi daxil olmaqla, tikinti materialları ilə zəngindir. Təbii ki, bunlar məhz həmin bölgələrin iqtisadi baxımdan əhəmiyyətini göstərən faktorlardan biridir. Eyni zamanda, işğaldan azad olunmuş ərazilər turizm potensialına malikdir. Bu rayonlarda daxili və gəlmə turizm imkanları kifayət qədər böyükdür. Bu, imkan verəcək ki, turizim potensialını inkişaf etdirmək mümkün olsun. Belə zəngin təbii ehtiyatlara malik olan regiona iş adamlarını, sahibkarları, biznesmenləri cəlb etmək imkanı əhəmiyyətli dərəcədə arta bilər. Çünki təbii resurslarla zəngin olan ərazidə dövlət tərəfindən böyük dəstək olduğu halda investorlarda daha da maraq artır [1, 2, 3].

**Problemlərin həlli yolları və öyrənilmə səviyyəsi**

Bu aktuallıqdan irəli gələrək, biznes fəaliyyətinə son illər xarici faktorlar da böyük təsir göstərməkdədir. Araşdırmalar belə bir nəticəyə gətirib çıxarır ki,dünya iqtisadiyyatında mühüm dəyişikliklər baş verir və bu da biznesin hazırda və gələcəkdə olan vəziyyətinə kəskin təsir göstərir. Yuxarıda qeyd olunanları nəzərə alaraq belə bir nəticəyə gəlmək olar, ölkənin iqtisadi proseslərinin inkişaf dərəcəsi müəyyən dərəcədə kiçik və orta biznesin inkişaf səviyyəsi nəticəsində təyin olunur.

Məhz bunun nəticəsidir ki, işgüzar reputasiyanın davamlı inkişafı və onun idarəetmə problemləri üzrə xarici və ölkə alimlərinin və nəzəriyyəçilərin diqqət mərkəzindədir. İşgüzar reputasiya-şəxsin “yaxşı ad”ı mənasını daşıyır. Bu, müəssisədə müəllif hüquqları, nou-hau, əmtəə nişanları kimi qeyri-maddi aktivlərin tərkibində özünü göstərir .Amerika prezidenti Benjamin Franklin demişdir: “Yaxşı bir reputasiya yaratmaq üçün çoxlu yaxşı əməllər lazımdır, onu itirmək üçün isə yalnız bir pis əməl kifayətdir”. Hər bir təsərrüfat subyekti:müəssisə, holdinq və ya fərdi sahibkar işgüzar reputasiya daşıyıcısı ola bilər.İşgüzar reputasiya- müəssisənin qeyri-maddi aktivlərinin əsası hesab olunur və müəssisənin balansında qudvil (qeyri-maddi aktiv) kimi öz əksini tapır. “İşgüzar reputasiya” ilə “qudvil” anlayışları və onların qarşılıqlı əlaqələri dünya iqtisadi təcrübəsində kifayət gədər inkişaf etmişdir. Şirkətin işgüzar reputasiyasının iki əsas kəmiyyət və keyfiyyət

aspektlərindən ibarət olduğunu və kəmiyyət aspektinin əsas komponentlər sırasında şirkətin imici, şöhrəti, biznesin perspektivliyi və s.komponentləri barəsində bir çox alimlər öz elmi əsərlərində qeyd edirlər. Ustinova L.N.-nin yazdığı kimi ötən əsrin ortalarına qədər “qudvil”, yəni “xoş niyyət” termininin yaranması müəssisə satışa çıxarılan zaman onun dəyəri maddi aktivlərin dəyərini bir neçə faiz üstələdiyi ilə əlaqədər idi.Alıcı könüllü olaraq artıq pul ödəyirdi və bu yaranmış fərqi müəssisənin balansına xüsusi aktiv qudvil (ingiliscə “ xoş niyyət”) kimi daxil edirdilər. Qryaznova A.G.,Fedotova M.A. və Lenskaya S.A. kimi nəzəriyyəçilərin rəyinə uyğun olaraq “qudvil – yaxşı reputasiya,işgüzar əlaqələr, şirkətin markası ilə təyin olunan müəssisənin qeyri –maddi aktivlərinin bir hissəsidir.Müəyyən sahədə müəssisə sabit yüksək mənfəət əldə etdikdə qudvilin yaranması baş verir” [4,5,7].

**Rəqabətədavamlı iqtisadi inkişafda işgüzar reputasıydan istifadənin iqtisadi üstünlükləri**

Müasir dövrdə hər bir firmanın rəqabətədavamlı fəaliyyətində qiymət amili, işçilərin sayının, maya dəyərinin azaldılması və plan tapşırıqların yerinə yetirilməsi meyarları ilə yanaşı, hər bir firmanın fəaliyyətində əsas üstünlük istehsal olunan məhsulların yüksək keyfiyyətinə, məhsulların təhlükəsiz olduğuna, yeni texnologiyaların bazasında unikal patentləşdirilmiş məhsulların istehsalına verilir. Yuxarıda qeyd olunanların hamısı istehlakçıya yüksək keyfiyyətli servis xidmətləri vasitəsilə təqdim olunmalıdır. İstehsalın genişləndirilməsinə, yenilənməsinə və bu da gələcəkdə firmanın rifahının təmin olunmasına;məhsulun rəqabətqabiliyyətliyinə və kadr potensialının inkişafına; istehsalın optimal strukturunun yaranmasına və bundan qaynaqlanaraq firmanın hər bir bölməsinin maksimal töhfələrini verməyə imkan yaranmasına böyük diqqət ayrılmalıdır. Buna görə də hər bir biznesin qlobal məqsədi-tələbatın tam təmin olunmasıdır.Planlaşdırılmış mənfəətin əldə olunması üçün firmanın və məhsulların zəif və güclü tərəflərinin müəyyənləşdirilməsi, dövlət qurumlarının dəyişiklikləri əsasında inkişaf pronozlarının işlənməsi,məhsulun çeşidi və bazarda ona olan tələbatı- bir sözlə uğur əldə etmək üçün mübarizə aparmaq vacibdir.Qeyd etmək lazımdır ki, cəmiyyətin məhdud resursları, burada həmçinin istehlakçıların və müştərilərin pul vəsaitlərini də göstərmək mümkündür, fəaliyyət göstərilən bazar seqmentində iqtisadi cəhətdən üstünlük təşkil edirlər. Rəqabətqabiliyyətli məhsulun istehsalı nəticəsində rəqiblərin sıxışdırılması, yüksək gəlirin qazanılması, yeni imkanlar əldə etməsi (dövlət sifarişləri, bank kreditləri və s.), biznes partnyorların və rəqiblərin cəmiyyətdə xüsusi çəkisinin artmasını firmanın işgüzar reputasiyasının hesabına həyata keçirmək mümkündür. Yəni,müəssisənin biznes fəaliyyətinin yüksəldilməsində onun işgüzar reputasiyasının mövcud potensialının qiymətləndirilməsi vacibdir.Bunun əsas səbəbi aşağıdakılarla izah olunur: İqtisadiyyat üçün çoxdan yeni bir problem sayılmayan müasir şəraitdə siyasi və hüquqi məsələlərin qeyri-müəyyənliyi, xarici mühitdə qeyri-sabitliyin artması, ölkələr tərəfindən rəqabət təzyiqi, dünyada gedən proseslərin stoxastik ağırlaşması nəticəsində müəssisənin işgüzar reputasiyasının qorunub inkişaf etməsi xüsusi əhəmiyyət kəsb edir [4,6,9,10].

**Müəssisənin maddi və qeyri-maddi aktivlərinin xüsusiyyətləri, strukturu və idarə edilməsi üsulları**

Qeyri-maddi aktivlərin düzgün qiymətləndirilməsi sayəsində gələcəkdə sənaye müəssisələrinin uğurla idarə edilməsini təmin etmək mümkündür. Müəssisənin qeyri-maddi aktivlərinin idarə edilməsinin bir sıra metodları var. Bunları aşağıdakı kimi təsnif etmək olar (Sxem1):

Qeyd etmək lazımdır ki, qeyri-maddi aktivlərin fiziki təcəssümünün olmaması səbəbindən ekspertlər qeyri-maddi aktivlərin idarə edilməsi ilə bağlı kifayət gədər çətinliklərlə üzləşirlər. Qeyri-maddi aktivlərin idarə etmə üsullarından istifadə etmək üçün növbəti cədvəldə struktura nəzər yetirək.

Bu cədvəldə verilmiş metodları aşağıdakı kateqoriyalar üzrə strukturlaşdıra bilərik (cədvəl 1).

Qeyri-maddi aktivlərin strukturunda (cədvəl 2) kateqoriyalar və onların məzmunu verilmişdir. Lakin, maddi və qeyri-maddi aktivlərin fərqli cəhətlərini (“işgüzar reputasiya”nın əsas xüsusiyyətləri) cədvəl 2-də görmək mümkündür.

Cədvəl 2-dən göründüyü kimi müəssisənin biznes-aktivlərin qeyri-maddi hissəsini,yəni maliyyələşməsini təşkil edən işgüzar reputasiyanın qiymətləndirilməsi dəqiq müəyyən edilmiş analiz və

ölçmə üsulları tələb edir. Kəmiyyət və keyfiiyyətcə ölçülə bilən hər bir müasir müəssisənin işgüzar reputasiyası mürəkkəb bir sistemdir. Xatırlamaq lazımdır ki, qudvil xüsusən işgüzar reputasiya həmişə müəyyən bir firma və ya konkret təşkilatla bağlılığı olduğu üçün ayrılmaz şəkildə çıxış edə bilməz. Sənaye müəssisəsinin səmərəli idarə edilməsi birbaşa onun dəyərinin artması ilə bağlıdır. Buna misal olaraq 2008-2009-cu illərdə dünyada baş verən maliyyə-iqtisadi böhranı, 2013-2015-ci illərdə iqtisadi qeyri-sabitlik, 2019-cu ildən bu günə kimi dünyada davam edən pandemiya və

**Sxem 1.**

**Müəssisənin qeyri-maddi aktivlərinin idarəetmə üsulları**




*Mənbə:[5,6] əsasında müəllif tərəfindən tərtib olunub*

**Cədvəl 1**

**Qeyri - maddi aktivlərin strukturu**

| | KATEQORİYA | MƏZMUN |
|---|---|---|
| Qeyri-maddi aktivlər | Bacarıqlar və qeyri - rəsmi biliklər | • NOU-XAU<br>• Səlahiyyət sahələri |
| | İlkin və idarəetmə prosesləri | • Nəzarət və idarəetmə<br>• Məlumatların mübadiləsi<br>• İdarəetmə məlumatları |
| | Texnologiyalar və formalaşdırılmış biliklər | • Patentlər<br>• Rəhbərlik<br>• Prosedurlar |
| | Ümumi mənəvi dəyərlər və normalar | • İstehlakçıya köklənmək<br>• Təchizat təhlükəzsizliyi<br>• Məhsulun keyfiyyəti və sabitlik |

*Mənbə: [5,6] əsasında müəllif tərəfindən tərtib olunub*

Cədvəl 2

**Maddi və qeyri – maddi aktivlərin fərqli cəhətləri**

| XÜSUSİYYƏTLƏR | QEYRİ - MADDİ AKTİVLƏR | MADDİ AKTİVLƏR |
|---|---|---|
| Aşkarlıq | Bir iştirakçı tərəfindən istifadə digərlərin istifadəsinə mane olmur | Yalnız bir iştirakçı tərəfindən eyni anda istifadə olunur |
| Amortizasiya | “aşılanmayan”, lakin adətən vaxtından əvvəl köhnəlir | Köhnəlir, sürətli köhnəlmə mümkündür |
| Ötürmə (transfer dəyəri) | Hesablanması çətindir | Hesablanması asandır(nəqliyyat xərcləri hesablanır) |
| Mülkiyyət hüququ | Məhduddur (patentlər, müəllif hüquqları, əmtəə nişanı ilə və s.) | Aydın və dəqiq təyin olunur |
| Mülkiyyət hüququ müddəalarının tətbiqi | Mürəkkəbdir | Problemsiz |

*Mənbə [5,6] əsasında müəllif tərəfindən tərtib olunub.*

bir sıra qlobal tendensiyalar (məsələn cüzi iqtisadi artım,sənayeləşmiş ölkələrin yeni reindustrializasiya siyasəti,dünya iqtisadiyyatında davam edən regionallaşma,yeni rəqəmsal texnologiyaların tətbiqində dördüncü sənaye ingilabı) dünyanın aparıcı şirkətlərində (General Motors, Alcoa, Coca Cola və s.) maddi aktivlər ilə bərabər qeyri –maddi aktivlərin dəyərinə mühüm təsir göstərmişdir. Mürəkkəb iqtisadi və geopolitik vəziyyətdə sənaye müəssisələrinin rəhbərlərinə işgüzar reputasiyanın zamanında dəyərləndirilməsi və onun dəyəri əsasında səmərəli idarəetmə mexanizminin formalaşması həmin müəssisələrə bazarda öz paylarını qoruyub saxlama imkanını verir.

Araşdırmalar göstərir ki,müəssisənin səmərəli idarə edilməsi mexanizmi onun işgüzar reputasiyasının qiymətləndirilməsi əsasında aparılmalıdır (sxem 2). İşgüzar reputasiyanın qiymətləndirilməsi əsasında müəssisənin dəyəri, rəqabətqabiliyyətlilik səviyyəsi,uzunmüddətli perspektivdə onun davamlı inkişafı müəyyənləşdirilir. Müəssisənin işgüzar reputasiyasının qiymətləndirilməsi və maliyyə göstəriciləri ilk növbədə müəssisənin maliyyə nəticələri ilə, yəni gəlir və mənfəətilə sıx bağlıdır. Bu təbiidir, çünki, investorlar şirkətin dəyərləndirilməsində ilk növbədə müəssisənin uğurlu maliyyə təsərrüfat fəaliyyətinin nəticələri hesab edilən müsbət işgüzar reputasiyanı əsas götürürlər.

Sosial korporativ məsuliyyət proqramları, kadr hazırlığının inkişafına yönəldilmiş vəsaitlər də daxil olmaqla müəssisənin sosial məsuliyyəti göstəricilərinin nəticələrini nəzərə almaq lazımdır. Şirkətin əlavə dəyəri şirkətin fəaliyyətinin müxtəlif aspektlərini birləşdirən ən vacib və geniş yayılmış göstəricisidir [6,8,9]. Bu göstərici (ƏD) aşağıdakı kimi hesablanılır:

$$ƏD=AA+SM+ƏH$$

Burada, ƏD-əlavə dəyər; AA-amortizasiya ayırmalarının cəmi; SM-satışdan mənfəət; ƏH-ümumi əməkhaqqı fondu.

**Sxem 2**

**Qeyri- maddi aktivlərin idarəedilməsi alqoritmi**




*Mənbə: Müəllif tətəfindən tərtib edilib*

Təhlillər göstərdi ki, müəssisənin maliyyə göstəriciləri (qudvil) funksional olaraq əlavə dəyəri ilə əlaqəli deyil.

Bunu eyni zamanda, qudvillə əlavə dəyərin struktur komponentləri arasında korrelyasiya əlaqələrinin olub-olmadığını müəyyən etməklə, buna uyğun olaraq, sabit statistik göstərici ilə qarşılıqlı əlaqələrin olması haqqında fərziyyə ilə yoxlamaq mümkündür:

QQ=f(SM ,ƏH ,AA) və MM=f(SM, ƏH, AA)

Burada, QQ-qudvilin ədədi qiyməti; MM-müəssisənin maliyyələşməsi; SM-satışdan mənfəət; ƏH-ümumi əməkhaqqı fondu; AC-amortizasiya ayırmalarının cəmi.

Bu halda inflyasiya amillərini nəzərə almadan müəssisənin xalis və ümumi aktivləri kimi hər bir göstəricinin nisbi qiymətlərindən ($nq_1$, $nq_2$, $nq_3$) istifadə edilir. Bu qiymətlər aşağıdakı kimi hesablanır:

$nq_1 = SM/A$ $nq_2 = H/A$, $nq_3 = AA/A$

Burada, SM-satışdan mənfəət ; ƏH-ümumi əməkhaqqı fondu; AA-amortizasiya;
A-aktivlər.

İkitərtibli polinom funksiyası və reqressiya modelləri əsasında ikiölçülü funksiya qurulur. Bu funksiyalardan istifadə etməklə aşağıdakıları müəyyənləşdirmək mümkündür:

- Müəssisənin mənfəət, əməkhaqqı və amortizasiya göstəriciləri əsasında qudvil və maliyyələşmə səviyyəsi proqnozlaşdırılır.
- Əlavə dəyər komponentlərinin təsiri əsasında qudvil və maliyyələşmənin idarə edilməsi.
- Müəssisənin əlavə dəyərinin yaranmasından əldə olunan nəticələr əsasında onların maliyyələşməsinin və qudvilin təyini.
- Qeyri-maddi aktivlər, son dərəcə çətin ölçülə bilənlər kateqoriyasına aiddir. Qudvil ən vacib qeyri-maddi aktivdir.
- Sürətlə dəyişən yerli və xarici bazarların uzunmüddətli rəqabətqabiliyyətliliyinin artımına təsir edən qudvil sənaye müəssisəsi üçün ən əhəmiyyətli qeyri-maddi aktivdir.
- Müasir dövrdə qiymətləndirilmənin düzgünlüyünü çətinləşdirən, firmalar arasında rəqabəti daim artıran işgüzar reputasiya ən vacib qeyri-maddi aktivlərdən biridir.
- Müəssisənin gələcəkdə uğur qazanması üçün onun işgüzar nüfuzu istehsal və marketinq amilləri ilə dəstəklənməlidir.
- Bəzi tədqiqatçıların araşdırmalarına əsasən qeyd etmək olar ki, mənfəətin davamlı olmasına işgüzar reputasiya zəmanət verə bilməz.
- Qeyd etmək lazımdır ki, müxtəlif sahələrdə biznesin çoxsaylı xüsusiyyətlərini nəzərə alaraq şirkətin işgüzar reputasiyasının qiymətləndirilməsində heç bir metod universal hesab edilmir.

### *Nəticə*

Yuxarıda qeyd olunanları nəzərə alsaq belə bir nəticəyə gəlmək olar:

- Kiçik və orta biznesdə əsas problemlər aşağıdakılar hesab olunur: təşkilati problemlər (xarici mühit, hökumət, nəzarət orqanları ilə qarşılıqlı fəaliyyət; qarşı tərəflərin statusu haqqında kifayət qədər məlumatın olmaması və təchizatçılarla münasibətlərin qurulmasının çətinliyindən yaranan risklər); şirkətdaxili problemlər (ixtisaslı kadrların və idarəetmə bacarıqlarının kifayət qədər olmaması, istehsal bazarlarının kifayət qədər olmaması və s.); hüquqi problemlər (qanunvericiliyin mükəmməl olmaması, biznesə inzibati təzyiq); maliyyənin çatışmazlığı, borc vəsaitlərinin yüksək qiyməti.

- İşğaldan azad edilmiş zəngin təbii resursları olan ərazilərin bərpası istiqamətində xalqımızın rifahı üçün tam istifadə etmək məqsədilə kiçik və orta biznes fəaliyyəti üçün dövlət tərəfindən dəstəklənmək, inzibati, hüquqi-normativ, maliyyə resuslarından yararlanmaq mütləqdir. İqtisadiyyatın rəqəmsal transformasiyası dövründə post-konflikt vəziyyətlərdə iqtisadi təhlükəsizliyin yeni ümumi siyasətini işləyib hazırlamaq, yaratmaq dövlətin iştiraki ilə həyata keçirilməlidir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan 2030:Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər".AR Prezidentinin Sərəncamı, 2 fevral, 2021-ci il.
2. Azərbaycanın statistik göstəriciləri. AR Dövlət Statistika Komitəsi. B.,2021.
3. "Postkonflikt vəziyyətlərdə yenidənqurma və bərpa-RRPC" mövzusunda beynəlxalq konfrans. ADNSU,25-26 fevral, 2021-ci il.
4. A.B. Abbasov. "Biznesin təşkili və idarə edilməsi". Dərslik. Bakı,"İqtisad Universiteti" Nəşriyyatı, 2 011.
5. Барух Л. "Нематериальные активы: управление, измерение, отчетность" / под ред. В.М. Рутгайзера. – М. : ЗАО «Квинто-Консалтинг», 2003.
6. Бонг Н.В. "Инструменты и методы управления деловой репутацией промышленных предприятий" : дис. ... канд. экон. наук. – СПб., 2004.
7. Галочкин Д. "Что такое деловая репутация?" – URL: http://www.oprf.ru /press/news/2014/newsitem/23769 (дата обращения: 03.05.2014).
8. Жученко Ю. Н. "Анализ метода избыточной прибыли при оценке стоимости гудвилла // Российское предпринимательство". – 2011. – № 6, вып. 1 (185).
9. Мамаева, Л.Н. "Оценка уровня экономической безопасности предприятия" / Л.Н. Мамаева, Я.А. Осипова, С.Е. Хожина // Экономическая безопасность и качество. – 2020. – № 1.
10. Нуретдинова, Ю.В. "Обеспечение экономической безопасности на предприятиях малого и среднего бизнеса" / Ю.В. Нуретдинова, К.Е. Краснова, А.А. Сипатова // Научный электронный журнал «Меридиан». – 2020. – № 13 (47).



***Газанфар Салман оглы Сулейманов***
***Азербайджанский Государственный Университет***
***Нефти и Промышленности***
***Профессор, заведующий кафедрой «Менеджмент»,***

***Эмилия Хангусейн гызы Шахверанова***
***Азербайджанский Государственный Университет***
***Нефти и Промышленности***
***Ассистент кафедры «Менеджмент»***


## Перспективы деловой репутации в конкурентоустойчивом экономическом развитии предприятия


***Резюме***

**Цель исследования.** Разработаны некоторые механизмы оценки и управления деловой репутации для устойчивого развития малого и среднего бизнеса и классификация факторов, влияющих на восстановление и развитие бизнеса, а также промышленных предприятий на освобожденных территориях нашей республики в постконфликтный и постпандемийный периоды.

**Методология исследования.** Разработка методики расширения малого и среднего бизнеса, успешное управление промышленным предприятием в будущем за счет правильной оценки материальных и нематериальных активов предприятия.

**Практическое значение исследования.** Развитие восстановления бизнеса на освобожденных территориях нашей страны, обладающей богатыми природными ресурсами. Предложена государственная поддержка и использование методов деловой репутации в процессе работы.

**Научная новизна исследования.** Повышение социально-экономического развития нашей страны за счет эффективного использования экономического и производственного потенциала в глобализирующемся мире, дальнейшее укрепление нашей армии, разработка экономических механизмов использования деловой репутации в конкурентном развитии предприятий в целях дальнейшего повышения благосостояния граждан.

**Заключение.** Оценка долгосрочной устойчивости и конкурентоспособности динамично меняющихся промышленных предприятий, а также экономические категории, возникающие с точки зрения деловой репутации, очень важны для формирования эффективного механизма управления в современном периоде до сих пор до конца не изучена.То есть минимизация административного давления для реструктуризации и восстановления бизнеса в постконфликтных ситуациях, организация льготных кредитов, очень важна и необходима при принятии дополнительных мер, таких как государственная поддержка малого бизнеса.

***Gazanfar Salman Suleymanov***
***Head of the "Management" department of the***
***Azerbaijan State Oil and Industry University, professor,***

***Emilia Khanhuseyn Shaкhveranova***
***Assistant of the "Management" department of the***
***Azerbaijan State Oil and Industry University***

## The prospects of business reputation in the competitive economic development of the enterprise

***Summary***

**The purpose of the research:** Classification of factors influencing the reconstruction and restoration of jobs and other industries in the post-conflict and post-pandemic regions of the country, as well as the development of a set of mechanisms for proper assessment and management of business reputation Sustainable development of small and medium enterprises.

**Research methodology:** The development of the methodology for the successful management of industrial enterprises in the future, the expansion of small and medium-sized business activities due to the correct assessment of the tangible and intangible assets of the enterprise.

**Significance of the research:** In our country, which has rich natural and material resources, including liberated lands, it was recommended to restore and develop the enterprise, create an efficient system, support the state and use the reputation of the enterprise in the operation process.

**Originality and scientific novelty of the research:** In order to increase the socio-economic development of our country by effectively using the economic and production potential of our country in a globalized world, to further strengthen our army, to further improve the welfare of citizens, it is to develop economic mechanisms to use business reputation in competitive development.

**Conclusion:** In order to assess the long-term viability and competitiveness of dynamically changing industrial enterprises, as well as the formation of an effective management mechanism, economic categories arising from business reputation perspectives are very important and, at the same time, still insufficiently studied in modern times. That is, in post-conflict situations, it is very important and necessary to take additional measures to minimize administrative pressure for the reconstruction and restoration of business activities, the organization of soft loans, government support for small businesses.